ədalət.- 2021.- 11 fevral.- S.5.

# VƏTƏN SİZƏ OĞUL DEDİ

*Əsgər Məlikov Elvin*



Əsgər Məlikov Elvin İlham oğlu 20.03.2001-ci ildə Xətai rayonunda anadan olub.

O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 04.10.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

*Kəşfiyyatçı kapitan Əliyev Fəzail*



Kəşfiyyatçı kapitan Əliyev Fəzail Cahan oğlu 05.11.1990-cı ildə Zaqatala rayonu Bəhmədlik kəndində anadan olub.

O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 30.09.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

*Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub*



Teymurov Vüsal Zakir oğlu 03.04.1991-ci ildə Səbail rayonunda anadan olub. Vətən müharibəsi başlanan zaman səfərbərlik xidməti tərəfindən döyüşlərə yollanan Vüsal igidlik və mərdlik göstərərək 13.11.2020-ci ildə Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

*Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub*



Qurbanov Murad Asif oğlu 23.03.1996-cı ildə Səbail rayonunda anadan olub. Vətən müharibəsi başlanan zaman səfərbərlik xidməti tərəfindən döyüşlərə yollanan Murad igidlik və mərdlik göstərərək 14.10.2020-ci ildə Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

*Könüllü İsmayılov Orxan*



Könüllü İsmayılov Orxan Zöhrab oğlu 23.01.1990-cı ildə Ucar rayonunun Məlikballı kəndində anadan olub. Vətən müharibəsi başlanan zaman Orxan könüllü olaraq döyüşlərə qatılaraq Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub. Şəhidimiz ailələi idi. Zöhrab və Ayxan adlı iki oğlu Vətənə əmanət qalıb.

*Cəbrayıl uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub*



Röyal Ziyad oğlu Qurbanov 2001-ci il avqust ayının 21-də Siyəzən rayonunun Beşdam kəndində anadan olub.

VII sinifə qədər Siyəzənkənd ümumi orta məktəbdə, sonra isə şəhər 3 saylı tam orta məktəbdə təhsil alıb və 2018-ci ildə həmin məktəbin məzunu olub. 2019-cu ilin oktyabr ayında həqiqi hərbi xidmətə çağrılıb. Xüsusi təyinatlı dəstənin kəşfiyyat bölüyündə xidmət edən Röyal Vətən müharibəsində Suqovuşan qəsəbəsinin düşməndən azad edilməsində xüsusi igidlik göstərib. Oktyabr ayının 5-də Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə Röyal Qurbanov qəhrəmancasına Şəhid olub.

*Bir övladı Vətənə əmanətdir*



Şahmar Kəmaləddin oğlu Quliyev 1991-ci il noyabrın 7-də Naxçıvan MR Naxçıvan şəhərində anadan olub. Azərbaycan Ordusunun kapitanı olan Şahmar Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Şahmar Quliyev sentyabrın 28-də Suqovuşan döyüşləri zamanı şəhid olub. II Fəxri Xiyabanda dəfn olunub.

Şəhidimiz ailəli idi. Bir övladı Vətənə əmanətdir.